# Dolayı gömrük təmsilçilərinin nəzərinə!

Bildiririk ki, Dövlət Gömrük Komitəsi tərəfindən gömrük rəsmiləşdirilməsi üzrə mütəxəssislərin fəaliyyətinin qiymətləndirilməsinə başlanılmışdır.

Mütəxəssislərin fəaliyyətinin qiymətləndirməsi ildə 2 (iki) dəfə *(yanvar ayının 1-dən iyun ayının 30-dək və iyul ayının 1-dən dekabr ayının 31-dək olan dövr ərzində)* sistem vasitəsilə avtomatik qaydada həyata keçiriləcək və mütəxəssislər qiymətləndirmənin nəticəsinə dair “çıxarış sənədi”ni şəxsi kabinet vasitəsilə əldə edə biləcəklər.

Gömrük rəsmiləşdirilməsi üzrə mütəxəssislərin fəaliyyətinin qiymətləndirilməsi gömrük təmsilçiləri tərəfindən gömrük qanunvericiliyinə könüllü riayət mədəniyyətinin formalaşdırılmasına, tərtib edilmiş gömrük bəyannamələrinin keyfiyyət göstəricilərinin artırılmasına, gömrük əməkdaşı tərəfindən gömrük bəyannaməsinin yoxlanılması prosesinin operativ qaydada aparılmasına, həmçinin malların gömrük rəsmiləşdirilməsi prosesinin sürətli və sadələşdirilmiş qaydada həyata keçirilməklə vaxt və xərc itkisinin minimuma endirilməsinə töhvə verəcəkdir.

Əlavə olaraq bildiririk ki, gömrük rəsmiləşdirilməsi üzrə mütəxəssislərin fəaliyyətinin qiymətləndirilməsi zamanı təkrar **“qeyri-kafi”** nəticə aşkar edildikdə, Dövlət Gömrük Komitəsi nəticələri təhlil edərək Azərbaycan Respublikası Nazirlər Kabinetinin 19 sentyabr 2012-ci il tarixli 207 nömrəli Qərarı ilə təsdiq edilmiş “Gömrük rəsmiləşdirilməsi üzrə mütəxəssislərə ixtisas attestatının verilməsi, fəaliyyətinin dayandırılması və ləğv edilməsi Qaydaları”nın 4.1-ci bəndinə əsasən ixtisas attestatının fəaliyyətini dayandırır.

## Gömrük rəsmiləşdirilməsi üzrə mütəxəssisin fəaliyyətinin qiymətləndirilməsi Meyarları

| | Qiymətləndirmə meyarları | Maksimum bal |
|---|---|---|
| A | ixtisas attestatının alınması üçün keçirilən müsabiqədə əldə etdiyi nəticə; | 5 |
| B | geri qaytarılmış gömrük bəyannamələrinin tərtib edilmiş gömrük bəyannamələrinə münasibətdə payı; | 10 |
| C | buraxılışdan sonra düzəliş olunmuş gömrük bəyannamələrinin tərtib edilmiş gömrük bəyannamələrinə münasibətdə payı; | 15 |
| D | xarici iqtisadi fəaliyyətin mal nomenklaturası üzrə koduna düzəliş edilmiş gömrük bəyannamələrinin sayı; | 20 |
| E | əlavə hesablanan gömrük ödənişlərinin məbləğinin gömrük bəyannaməsində düzəlişdən əvvəl hesablanan gömrük ödənişlərinə nisbəti; | 20 |
| F | mütəxəssisin gömrük qaydaları əleyhinə törətmiş olduğu hüquqpozma faktlarının sayı. | 30 |
| | **Yekun:** | **100** |

**Mütəxəssisin yekun nəticəsi**

- 90 baldan yuxarı olduqda “əla”
- 81-90 bal aralığında olduqda "yaxşı"
- 71-80 bal aralığında olduqda “orta”
- 61-70 bal aralığında olduqda “kafi”
- 60 və daha aşağı bal olduqda “qeyri-kafi” olaraq qiymətləndirilir.